

# Qitələri yaxınlaşdıran dostluq və əməkdaşlıq

**Daim müstəqillik, suverenlik prinsiplərindən çıxış edən Azərbaycan özünün multiregional xarici siyasət kursunda həm yaxın, həm də uzaq coğrafiyalarda yerləşən ölkələrlə münasibətlərini qarşılıqlı hörmət və maraqlar əsasında genişləndirməyə çalışır. Azərbaycan ilə Asiya ölkələri arasında əməkdaşlıq son illər yeni inkişaf mərhələsinə qədəm qoyub. Azərbaycan Prezidentinin Çinə dövlət səfəri, cari il ərzində Pakistan Baş nazirinin və İran Prezidentinin ölkəmizə səfərləri Azərbaycan ilə Asiya ölkələri arasında fəal dialoqun, çoxşaxəli əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə mühüm töhfə verir. Belə ölkələrdən biri də Vyetnamdır. Azərbaycanla Vyetnam arasında dostluq münasibətlərinin möhkəmlənməsində qarşılıqlı səfərlərin xüsusi rolu olub.**

İki ölkə əsas sektorlarda praqmatik yanaşma və ümumi maraqlara əsaslanan davamlı və qarşılıqlı faydalı əlaqələr qurur. Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lam ölkəmizə dövlət səfərinə gəlib. "Biz bu gün, eyni zamanda beynəlxalq hüququn aliliyi haqqında fikir mübadiləsi apardıq və burada da heç bir fikir ayrılığı yoxdur. Bütün məsələlər ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı əsasında - beynəlxalq hüquq çərçivəsində öz həllini tapmalıdır. Bütün mübahisəli məsələlər danışıqlar yolu ilə, sülh yolu ilə həll olunmalıdır". Bu fikirləri mayın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatında bildirib. Dövlət başçısının sözlərinə görə, yeni bu gün bir çox istiqamətlər üzrə apardığımız müzakirələr əsnasında görürük ki, fikir ayrılığı yoxdur. Əksinə, biz demək olar ki, vahid mövqedən çıxış edirik. Baxışlarımızda da bir çox oxşarlıq var. Baxmayaraq ki, aramızdakı məsafə kifayət qədər uzundur, bizi birləşdirən nəqliyyat-infrastruktur layihələri haqqında da bu gün danışdıq. Biz həm Şimal-Cənub, həm Şərq-Qərb nəqliyyat dəhlizləri vasitəsilə qarşılıqlı ticarəti stimullaşdıra bilərik. Bir sözlə, əminəm ki, səfərin çox gözəl nəticələri olacaq.

To Lam da vurğulayıb ki, hazırkı səfərim diplomatik münasibətlər qurulduqdan sonra Vyetnam Kommunist Partiyasının Baş katibinin Azərbaycana ilk səfəridir. Bu, Azərbaycanla bütün sahələrdə əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsində Vyetnamın qətiyyətli olduğunu nümayiş etdirir. Bütün bunlar, öz növbəsində, ölkələrimiz arasında ənənəvi dostluğa və əməkdaşlıq potensialına cavab verir. Biz etimad, dostluq və səmimiyyət şəraitində cənab Prezidentlə uğurlu danışıqlar apardıq və yaxın zamanlarda iki ölkə arasında əlaqələrin strateji istiqamətlər üzrə inkişaf etdirilməsi barədə razılığa gəldik.

Azərbaycanı və Vyetnamı yarım əsrdən artıq tarixə malik dostluq münasibətləri birləşdirir. Belə ki, 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Ho Şi Min Azərbaycan SSR-ə səfər edib. Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışan Ümummilli Lider Heydər Əliyev 1983-cü ildə Vyetnamda səfərdə olub. Bu səfərlər ölkələrimiz arasında əməkdaşlığın inkişafının möhkəm təməlinə çevrilib. Böyük siyasətçi Heydər Əliyev Vyetnamın birləşməsindən sonra bu ölkəyə səfər edən ilk yüksəkvəzifəli xarici dövlət rəsmisi idi. Əslində, həmin səfərin Vyetnam üçün olduqca böyük, başqa sözlə, həyati əhəmiyyəti var idi. Çünki qanlı müharibədən sonra təzəcə sabitlik və inkişaf yoluna qədəm qoyan Vyetnam regionda gedən geosiyasi proseslər fonunda yenə ciddi təhdidlə üzləşmişdi. Belə bir məqamda dahi Heydər Əliyevin səfəri Vyetnam xalqı və hökuməti üçün böyük dəstək ifadə edirdi. Məhz həmin səfərdən sonra Heydər Əliyev sovet rəhbərliyini Vyetnama iqtisadi və elmi-texniki kömək göstərməyin zəruriliyinə inandıra bilmişdi. Onun səyləri, Bakıdan gətirilən əlavə azərbaycanlı mütəxəssislərin və texnikanın cəlb edilməsi nəticəsində Vyetnamda ilk neft proqnozlaşdırıldığından xeyli əvvəl - 1986-cı ilin iyununda hasil edildi.

**(davamı 3-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Heydər Əliyevin 42 il əvvəl sovet nümayəndə heyətinin rəhbəri kimi Vyetnama səfəri təkcə keçmiş SSRİ ilə Vyetnam arasında münasibətlərin dərinləşdirib. Sovet dövründə minlərlə vyetnamlı Dövlət Neft və Sənaye Universiteti başda olmaqla, Azərbaycanda müxtəlif sahələr üzrə təhsil alıblar. Onlar ölkələrinə qayıtdıqdan sonra müxtəlif vəzifələrdə çalışaraq, Vyetnamın inkişafına töhfələr veriblər. Azərbaycanın Vyetnamda səfirliyi açılandan sonra Bakının vyetnamlı məzunları səfirliyimizin dəstəyi ilə təşkilatlanaraq Azərbaycan-Vyetnam Dostluq Assosiasiyası yaradıblar. Perspektivdə Azərbaycanla Vyetnam arasında münasibətlər müxtəlif istiqamətlərdə genişləndirilə bilər. Prezident İlham Əliyev bir sıra mühüm istiqamətləri sadalayıb ki, onların sırasında təhsilə xüsusi diqqət çəkib. "Əlbəttə, təhsil sahəsi. Həmişə olduğu kimi, Vyetnamdan tələbələrin gəlmələrinə şad olacağıq. Onlar Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün Azərbaycanın təklif etdiyi qrantlar və təqaüdlər çərçivəsində təhsil proqramlarından istifadə edə bilərlər".

Mədəni-humanitar əməkdaşlıqdan bəhs edərkən Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun Vyetnamla bağlı layihələrini xüsusi vurğulamaq lazımdır. Vyetnamın Hazianq əyalətində ucqar yaşayış məntəqələrindən olan Ziap Çunq qəsəbəsində ibtidai məktəb binasının inşası Heydər Əliyev Fondunun xeyirxahlıq missiyasının göstəricisi olmaqla yanaşı, Azərbaycanın Vyetnam ilə münasibətlərə verdiyi əhəmiyyətin təzahürüdür. Bu günlərdə Fondun vitse-prezidenti Leyla Əliyeva Vyetnamda səfərdə ikən Heydər Əliyev Fondunun xeyirxah missiyasının daha bir təzahürü olaraq görmə qabiliyyəti məhdud şəxslər üçün orta məktəbə, Hanoy Ticarət və Turizm Kollecinə qurumun maliyyə dəstəyi təqdim edilib. Leyla Əliyevanın səfəri zamanı Vyetnam Sosialist Respublikasının vitse-prezidenti Vo Ti An Suan və Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li ilə görüşlərində xalqlar arasında əlaqələrin, o cümlədən qeyri-hökumət təşkilatları səviyyəsində əməkdaşlığın vacibliyi vurğulanıb.

Vyetnam Kommunist Partiyası ilə Yeni Azərbaycan Partiyası arasında əməkdaşlıq aktiv olaraq genişləndirilir. Həmçinin iki ölkə arasında qurulan parlamentlərarası əlaqələr dinamik şəkildə inkişaf etməkdədir. Eyni zamanda hər iki ölkənin nazirlik və digər qurumları arasında birbaşa əlaqələr qurulmuşdur. Son illər ərzində Azərbaycan ilə Vyetnam arasında siyasi dialoq da yüksək səviyyədədir. Hər iki tərəfdən yüksək səviyyəli rəsmi şəxslərin qarşılıqlı səfərləri mütəmadi olaraq həyata keçirilir. 2013-cü ildən Vyetnam Milli Assambleyasında (Parlament) Vyetnam-Azərbaycan Parlamentlərarası Dostluq Qrupu, Azərbaycan Respublikasının Milli Məclisində isə Azərbaycan-Vyetnam Parlamentlərarası Əlaqələr üzrə İşçi Qrupu yaradılmış, iqtisadi, ticarət, elmi və texniki əməkdaşlıq üzrə Azərbaycan-Vyetnam Hökumətlərarası Komissiyası təsis edilmişdir. Həmçinin Hanoy şəhərində Vyetnam-Azərbaycan Dostluq Assosiasiyası və Azərbaycan Mədəniyyəti və Tarixi Araşdırmaları Mərkəzi yaradılmışdır. Qeyd olunan qurumlar Azərbaycanla Vyetnam arasında əlaqələrin davamlı inkişafına töhfəsini verməkdədir. Azərbaycan Vyetnamla münasibətdə, əlbəttə, digər beynəlxalq oyunçuların, o cümlədən ABŞ və Çinin də bu dövlətə qarşı mövqeyini nəzərə alır. Azərbaycan və Vyetnam ən böyük beynəlxalq təşkilatlar, o cümlədən Qoşulmama Hərəkatı və BMT çərçivəsində səmərəli əməkdaşlıq edir.

Mayın 7-də Azərbaycanla Vyetnam arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın iştirakı ilə mübadiləsi mərasimi olub. Azərbaycan Prezidenti İlham Əliyev və Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat"ı qəbul ediblər. Vyetnam Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinin Azərbaycana səfəri, aparılan müzakirələr, qəbul olunacaq qərarlar ölkələrimiz arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın genişləndirilməsinə, dost xalqlarımızın daha da yaxınlaşmasına təkan verəcək.

"Azərbaycan Vyetnamla iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verir". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev "Vietnam News Agency" agentliyinə müsahibəsində bildirib. "2024-cü ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Sözsüz ki, bizim bu göstəricini gələcəkdə də artırmaq üçün potensialımız mövcuddur", - deyən dövlət başçısı ölkələrimizin neft sahəsində də qarşılıqlı fəaliyyət göstərdiklərini vurğulayıb. Vyetnama əsasən neft və neft məhsulları, kimyəvi məhsullar, xam neft ixrac olunur. Vyetnamdan idxal etdiyimiz məhsullar sırasında daha çox elektronika, quru çay, tekstil məhsulları təşkil edir. Onlar daha çox neft sektoruna maraq göstərir, biz isə onların təcrübəsindən yararlanıb elektronika və avadanlıq istehsal etməyimiz daha məqsədəuyğun olar. Artıq elektronika, kompüter sistemləşməsi dünyada geniş yayılıb, innovativ inkişafa ehtiyac var. Bununla belə, həm sərhədyanı ölkələrin, həm də digər ölkələrin bir texnika, elektronika brendi var, bizdə isə təəssüf ki, yox dərəcəsindədir. Həmçinin neftdən asılılığın aradan qaldırılması, qeyri-neft sektorunda inkişafa nail olmaq üçün vacib addım hesab edilir. Qeyri-neft sektorunun əsas gəlirlərindən biri də turizm sahəsidir. Vyetnama birbaşa aviareysin açılması, münasib daşınma qiymətləri də iqtisadi baxımdan faydalı olar.

Bu gün iki dost ölkə arasında qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq, bununla da iqtisadiyyatlarımızın gələcəkdə daha da şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları yaradılır. Qlobal miqyasda rolu və nüfuzu artan Azərbaycan dünyanın ən müxtəlif regionlarındakı dövlətlərlə ikitərəfli əlaqələrini genişləndirir. Son illərdə Latın Amerikası, Afrika regionu dövlətləri ilə yanaşı, ölkəmiz Uzaq Şərq dövlətləri ilə də qarşılıqlı maraqlara əsaslanan münasibətlərini inkişaf etdirməkdədir. Bu baxımdan, Prezident İlham Əliyevin Şərqi və Cənub-Şərqi Asiya regionuna baş tutan səfərləri, keçirdiyi görüşlər ölkəmizin regionla siyasi, iqtisadi, humanitar əlaqələrinin inkişafına əlavə imkanlar yaradıb. Azərbaycanın Şərqi və Cənub-Şərqi Asiya regionu ilə əlaqələrinin genişlənməsində Vyetnamla siyasi, iqtisadi, humanitar sahələrdə münasibətlərin qurulmasının mühüm əhəmiyyəti var.

Azərbaycanın Avropa ilə Asiya arasında ticari-iqtisadi əlaqələrin genişləndirilməsində oynadığı önəmli rol qlobal Şərqin diqqətini getdikcə daha çox ölkəmizə cəlb edir. Biz bu gün Cənub-Şərqi Asiya ölkələrinin Azərbaycanla əməkdaşlıq əlaqələrini dərinləşdirməkdə son dərəcə maraqlı olduqlarını müşahidə edirik. İqtisadi artımı stimullaşdıracaq, həm də qarşılıqlı faydalı tərəfdaşlıq üçün dayanıqlı zəmin yaradacaq iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur. Azərbaycanın geostrateji mövqeyini və Orta Dəhliz (Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu) çərçivəsində multimodal infrastrukturun inkişafını nəzərə alaraq, Vyetnam öz mallarını Avropa bazarlarına çatdırmaq üçün Azərbaycanın tranzit potensialından istifadə etməkdə maraqlıdır. Dəyişən qlobal iqtisadi arxitektura və bir çox ölkələrin xarici iqtisadi əlaqələri şaxələndirmək səyləri kontekstində Vyetnamın Azərbaycanla əməkdaşlığa marağı təbii görünür. Bakıda keçirilən danışıqlar tərəfdaşlığın keyfiyyətcə yeni səviyyəsinə - daha strukturlaşdırılmış, strateji və uzunmüddətli nəticələrə yönəldilmiş mərhələyə keçmək üçün başlanğıc nöqtəsi ola bilər.

**Mustafa KAMAL,**
**"Respublika".**

Respublika.- 2025.-9 may (№ 94).- S.1;3.